# Hesabat yığıncağı keçirilmişdir

***Nic qəsəbə inzibati ərazi nümayəndəliyində 2019-cu ilin yekunları, 2020-ci ildə qarşıda duran vəzifələrə dair hesabat yığıncağı keçirilmişdir.***

***Məsələ ilə əlaqədar qəsəbə inzibati ərazi nümayəndəsi İbrahim Məmmədov məruzə etmişdir.***



Məruzəçi bildirmişdir ki, 2019-cu il də respublikamızın hər yerində olduğu kimi Qəbələ rayonunda, o cümlədən Nic qəsəbəsində də bütün sahələrdə nailiyyətlər əldə olunmuşdur.

Qəsəbə sakinlərinin əsas məşğuliyyəti əkinçilik, maldarlıq, meyvəçilik və tərəvəzçilikdir. Qəsəbə hələ qədimdən qiymətli ixrac məhsulu olan fındıq məhsulunun istehsalı ilə də məşhurdur. Fındığın istehsalını artırmaq üçün 2019-cu ildə burada əlavə 40 hektar yeni bağ əkilmişdir.

Məruzədə qeyd olunmuşdur ki, qəsəbədə yaşayan imkansız və köməyə ehtiyacı olan ailələr daim nümayəndəliyin diqqət mərkəzində olmuş, onlara qayğı ilə



yanaşılmış, imkan daxilində maddi və mənəvi köməklik göstərilmişdir.

Bildirilib ki, Nic qəsəbəsi ölkəmizdə multikulturalizmin və tolerantlığın ən uğurlu modellərindən biri sayılır. Burada udilər, azərbaycanlılar, ləzgilər və digər xalqların nümayəndələri bir-birinə hörmət və qarşılıqlı anlaşma şəraitində yaşayırlar.

İbrahim Məmmədov məruzəsində nümayəndəliyin apardığı işi hərtərəfli təhlil etmiş, 2020-ci ildə qarşıda duran vəzifələrdən danışmışdır.

Hesabat yığıncağında qəsəbə ağsaqqallar qrupunun sədri Frans Vartanov, qəsəbə xəstəxanasının baş həkimi Fikrət Ağayev, "Orayın" Udi Mədəniyyət Mərkəzinin rəhbəri Oleq Danakari, müəllim Şahid İslamov, Yeni Azərbaycan Partiyası Nic qəsəbə ərazi ilk təşkilatının sədri Rövşən Balayev və başqaları çıxış edərək qəsəbədə görülmüş böyük abadlıq, quruculuq işlərinə görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

Yığıncaqda rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev çıxış edərək ölkə Prezidenti İlham Əliyev tərəfindən aparılan uğurlu siyasət nəticəsində respulikamızın gündən-günə inkişaf etdiyini, çiçəkləndiyini bildirmişdir. O qeyd etmişdir ki, digər bölgələr kimi Qəbələ rayonu və Nic qəsbəsi də ölkə başçısının qayğısı sayəsində bu inkişafda öncül yerlərini saxlamışlar. Natiq ümid etdiyini bildirmişdir ki, rayonumuzun böyük yaşayış məntəqələrindən biri olan Nic qəsəbəsi 2020-ci ildə də yeni uğurlara imza atacaqdır.

Çıxış edənlər Nic qəsəbə inzibati ərazi dairəsi nümayəndəliyinin fəaliyyətini kafi qiymətləndirmişlər.

Yığıncaqda müvafiq qərar layihəsi müzakirə edilərək qəbul olunmuşdur.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# İlahiyyat İnstitutunun tələbələri qış məktəbində

***Fevralın 3-dən 7-dək Qəbələdə Azərbaycan İlahiyyat İnstitutunun qış məktəbi keçirilib.***

Qış məktəbinin ilk günü ümummilli lider Heydər Əliyevin abidəsi-



ni ziyarət edərək önünə tər çiçəklər düzən ali məktəbin kollektivi səfərlərinin ikinci günü "Din, mədəniyyət və cəmiyyət" mövzusunda seminar keçirib.

Qış məktəbinin iştirakçıları səfərləri çərçivəsində Heydər Əliyev Konqres Mərkəzində, Qəbələ Arxeoloji Tədqiqatlar Mərkəzində, Qəbələ Dövlət Tarix-Bədii Qoruğunda, "Udi ocağı"nda həmçinin rayonun digər tarixi yerlərində və turizm obyektlərində olublar.

Qış məktəbinin təşkilinin əsas məqsədi tələbələrin dünyagörüşünün zənginləşdirilməsi, onların ölkəmizdə mövcud multikultural, tolerant mühitin canlı şahidi olmalarıdır.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Gənclər rayonumuzun ictimai-siyasi həyatında fəal rol oynayırlar

***Qəbələli gənclər 2 fevral - Azərbaycan Gəncləri Gününü böyük ruh yüksəkliyi ilə qeyd ediblər.***

***Əlamətdar gün münasibətilə yanvarın 31-də Heydər Əliyev Mərkəzində gənclərin ümumrayon toplantısı keçirilib.***

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

Rayonun fəal gənclərinin iştirak etdiyi tədbirdə gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək, müasir həyatımızda gənclərin böyük qüvvəyə malik olduğunu, müstəqil dövlətimizin daha da çiçəklənməsi üçün sağlam, müstəqil düşüncəyə sahib olan, kreativ fikirli gənclərin yetişdiyini diqqətə çatdırıb. Bildirilib ki, düzgün qurulmuş ideya-siyasi işin nəticəsində bu gün Azərbaycan gəncliyi ümummilli lider Heydər Əliyev siyasətini ardıcıl şəkildə həyata keçirən Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, ulu öndərin ideyalarını qoruyur, inkişaf etdirir və ölkəmizin tərəqqisi naminə öz bacarıqlarını əsirgəmirlər.

Rayon icra hakimiyyətinin icti-



mai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Abşalam Hüseynov gəncləri əlamətdar gün münasibətilə təbrik edib, Azərbaycanda dövlət gənclər siyasətinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu və bu bayramın gənclərə ulu öndər tərəfindən ərməğan olunduğunu vurğulayıb.

Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən gənclər mükafatlandırılıblar.

**"Qəbələ"**
**Səhrab Umuyev (foto).**

# Sığorta etibarlı təminatdır

Ölkə iqtisadiyyatının–sənayenin, kənd təsərrüfatının və digər sahələrin inkişafı, əhalinin maddi rifahının gündən-günə yaxşılaşması sığorta işinin müasir tələblər səviyyəsində qurulmasına şərait yaradır. Bu nəzərə alınaraq son illər ölkəmizdə sığorta işinin yaxşılaşdırılmasına xidmət edən bir sıra normativ hüquqi aktlar qəbul edilmişdir.

Respublika Dövlət Sığorta Kommersiya Şirkətinin Qəbələ Rayon Filialı sığorta sahəsində qanunvericiliyin tələblərini əhaliyə çatdırmaq üçün ardıcıl iş aparır. Belə ki, əməkdaşlarımız və könüllülər müntəzəm olaraq yaşayış məntəqələrində olur, əhali ilə sığortanın əhəmiyyəti barədə söhbətlər aparırlar. Yerli idarəetmə orqanları ilə birlikdə həyata keçirilən bu maarifləndirmə tədbirləri öz müsbət nəticəsini verir. Vətəndaşların daha böyük qismi sığortanın və sığortaolunmanın əhəmiyyətini dərk edir. İnsanlarda sığortalanmaya inam gündən-günə artır. Nəticədə bu ilin yanvar ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə daşınmaz əmlakını sığorta etdirən vətəndaşların sayı xeyli artmış, sığorta haqqlarının toplanmasında dönüş yaranmışdır.

Qeyd edim ki, hazırda sığorta sahəsi xeyli genişlənmişdir. Vətəndaşlar həyatlarını, daşınar və daşınmaz əmlaklarını, kənd təsərrüfatı istehsalçıları bütün növ əkinlərini, ev heyvanlarını və s. sığorta etdirə bilərlər.

Təbii və texnogen fəlakətlər zamanı vətəndaşlara böyük maddi ziyan dəyir.

Bu ziyanı qarşılamaq üçün sığorta ən etibarlı təminatdır. Ona görə də hər bir vətəndaşa məsləhət görürük ki, həyatlarını, sağlamlıqlarını, daşınar və daşınmaz əmlaklarını sığorta mühafizəsi ilə əhatə etdirsinlər.

**Allahverdi ƏFƏNDİYEV,**
**Respublika Dövlət Sığorta Kommersiya Şirkəti Qəbələ Rayon Filialının direktoru.**

# Ədibin anım günü

***Azərbaycan realist nəsrinin banisi İsmayıl bəy Qutqaşınlının (1806-1969) doğum günü münasibətilə ədibin ev muzeyində tədbir keçirilmişdir.***

Muzeyin müdiri Çimnaz Müzəffərova həm də ilk azərbaycanlı generallardan biri olan İsmayıl bəy Qutqaşınlının həyat və yaradıcılığı barədə məruzə etmişdir.

Muzeyin ekspozisiyasına ekskursiyadan sonra tədbir iştirakçıları ədibin məzarını ziyarət etmişlər.

**İlhamə SEYİDOVA,**
**rayon tarix-diyarşünaslıq muzeyinin əməkdaşı.**

# Bir tələbə - bir fermer layihəsi

***Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində işəgötürənlərlə duala bənzər peşə təhsili və təliminin həyata keçirilməsi məqsədilə yaradılmış Koordinasiya Şurasının birinci iclası keçirilib.***

İclasda dual peşə təhsili və təliminin təşkili və inkişaf etdirilməsi üzrə təkliflər hazırlanması, şirkətdaxili təlimçilərin hazırlanması üzrə təkliflər, peşə təhsili təhsilalanlarını işəgötürən müəssisələrin iş yerlərində maraqlarının təmin edilməsi, şirkətlərin məktəbdə guşələrinin yaradılması məsələləri müzakirə olunub.

Sonda peşə təhsili və təliminə qoşulacaq müəssisə və şirkətlərin sayının artırılması, "Bir tələbə - bir fermer" layihəsinə qoşulmaq üçün işəgötürənlərin cəlb edilməsi, məktəb kuratorlarının və müəllimlərinin təcrübə keçmələrinin səmərəli təşkili üçün şərait yaradılması, şirkətdaxili təlimçilərin məktəbə cəlb olunması və digər məsələlərlə bağlı qərarlar qəbul olunub.

Xatırladaq ki, "Qəbələ, Qax və İsmayıllı rayonlarında kənd təsərrüfatı və turizm sahələrində duala bənzər peşə təhsili və təlimi pilotlarının yaradılması" layihəsi Avropa İttifaqı ilə Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi tərəfindən maliyyələşir və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti tərəfindən icra olunur. Layihənin məqsədi Qəbələ, İsmayıllı və Qax rayonlarında yerləşən 3 pilot peşə məktəbində Almaniyanın duala bənzər peşə təhsili və təlimi yanaşmasının tətbiqi ilə kənd təsərrüfatı və turizm sahələrində peşə təhsili və təliminin cəlbediciliyini artırmaq və əmək bazarına uyğunluğunu təmin etməkdir.

**"Qəbələ"**